**“Dövlət Dəniz və Liman Agentliyi” PHŞ-nin**

**2025-ci il audit edilmiş maliyyə hesabatlarının qısa icmalı**

Dövlət Dəniz və Liman Agentliyi (bundan sonra Agentlik) Azərbaycan Respublikasının ərazisində dəniz nəqliyyatı sahəsində dövlət siyasətinin formalaşmasında, həyata keçirilməsində və inkişafında iştirak edilməsi, bu sahədə tənzimləmənin və nəzarətin həyata keçirilməsi, dəniz üzgüçülüyünün təhlükəsizliyi, dənizdə insan həyatının və sağlamlığının qorunması, dəniz ətraf mühitinin mühafizəsi, habelə dənizçilərin hazırlanması sahəsində tədbirlərin görülməsi, dəniz limanlarında fəaliyyətin dövlət tənzimlənməsində iştirak edilməsi və dəniz üzgüçülüyünün təhlükəsizliyi ilə bağlı xidmətlər göstərilməsi sahəsində fəaliyyət göstərən publik hüquqi şəxsdir.

Agentliyin 2025-ci ildə maliyyə nəticələrinin 2024-cü illə müqayisədə fərqlənməsində əsas amillərdən biri 2024-cü ildə dövlət büdcəsindən ayrılmış subsidiya olmuşdur. Bununla yanaşı, 2025-ci ildə Agentliyin əsas fəaliyyət üzrə gəlirləri əvvəlki illə müqayisədə 5,4% artaraq 7,9 milyon manat təşkil etmiş, xərclərində isə 5,3% azalma müşahidə olunmuşdur.

Gələcək dövrlərdə Agentliyin fəaliyyət istiqamətlərinin genişləndirilməsi və xidmət imkanlarının artırılması proqnozlaşdırılır.

**MÜSTƏQİL AUDİTORUN RƏYİ**

**DÖVLƏT DƏNİZ VƏ LİMAN AGENTLİYİ PHŞ-nin rəhbərliyinə**

**Rəy**

Biz, DÖVLƏT DƏNİZ VƏ LİMAN AGENTLİYİ PHŞ-nin (bundan sonra Agentlik) 31 dekabr 2025-ci il tarixinə təqdim edilən maliyyə vəziyyətinə dair hesabatından, həmin tarixdə başa çatmış il üzrə məcmu gəlir haqqında hesabatından, kapitalda dəyişikliklər hesabatından, pul vəsaitlərinin hərəkəti haqqında hesabatından habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Agentliyin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

**Rəy üçün Əsaslar**

Biz, auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində əks etdirilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Agentlikdan asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Fəaliyyətin Fasiləsizliyi**

Əlavə edilmiş maliyyə hesabatları fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmışdır. Hesabatları hazırlayarkən menecment Agentliyin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini həyata keçirmə qabiliyyətini qiymətləndirmişdir. Menecment Agentliyin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirməsinə şübhə yarada biləcək, onları hadisələrlə və vəziyyətlə bağlı qeyri-müəyyənliklərin olmasına inandıracaq hər hansı sübutla qarşılaşmamışdır.

**Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyəti Verilmiş Məsul Şəxslərin Məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Agentliyi ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud da bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Agentliyin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin, o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar ediləcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı oldugu halda əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılmış auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Dələduzluq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlarının əhəmiyyətli təhrifləri riskini aşkar edir və qiymətləndirir, həmin risklərə uyğun audit prosedurlarını layihələndirərək həyata keçirir, rəyimizi bildirmək üçün yetərli və müvafiq audit sübutları əldə edirik. Dələduzluq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkarlanmaması riski səhv nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkarlanmaması riskindən daha yüksəkdir, çünki dələduzluq gizli sövdələşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına poszulmasından ibarət ola bilər.
- Auditlə bağlı daxili nəzarətə Agentliyin daxili nəzarət sisteminin səmərəliliyinə dair rəyin bildirilməsi üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik.
- İstifadə edilmiş uçot siyasətinin məqsədəuyğunluğunun və rəhbərlik tərəfindən aparılmış uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlamasının məqsədəuyğunluğunu qiymətləndiririk.
- Rəhbərlik tərəfindən mühasibat uçotunun fasiləsiz aparılma prinsipinin istifadə edilməsinin məqsədəuyğunluğunun və əldə edilən audit sübutları əsasında Agentliyin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması barədə nəticə çıxardığımız halda, auditor hesabatlarımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlamasına diqqət yetirməli və ya belə məlumatların açıqlaması kifayət etmədiyi halda, rəyimizə dəyişiklik etməliyik. Gəldiyimiz nəticələr auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Agentliyin fasiləsizlik prinsipi əsasında rəyimizin hazırlandığı tarixədək əldə edilmiş sübutlara əsaslanır.

Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə əks etdirilib-etdirilməməsini dəyərləndiririk.

Biz, idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələrin, o

cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar barədə məlumat veririk.

29 aprel 2026-cı il
Bakı Azərbaycan Respublikası
E-mail: info@frc.az
Tel: +99455 400 44 33

FINANCIAL REPORTING CENTER MMC-nin

direktoru: Qədirov Ramil Yusif oğlu

FINANCIAL REPORTING CENTER MMC-nin

auditoru: Abbaslı Azər Sərdar oğlu

Azərbaycan Respublikası Auditorlar
Palatası Tərəfindən verilmiş İCAZƏ: AT/312 13.09.2024-cü il

**"DÖVLƏT DƏNİZ VƏ LİMAN AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ**
**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 dekabr 2025-ci il tarixində başa çatan il üzrə**
*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| | Qeyd | 31 dekabr 2025 | 31 dekabr 2024 |
|---|---|---|---|
| ***AKTİVLƏR*** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Qeyri-maddi aktivlər | 4 | 1 008 853 | 954 103 |
| Torpaq, tikili və avadanlıqlar | 4 | 6 409 871 | 6 855 138 |
| Sair uzunmüddətli aktivlər | 4 | 3 000 000 | 3 000 000 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **10 418 724** | **10 809 241** |
| **Qısamüddətli aktivlər** | | | |
| Ehtiyatlar | 6 | 348 613 | 218 038 |
| Qısamüddətli debitor borcları | 7 | 1 048 778 | 775 273 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 8 | 4 698 632 | 9 060 092 |
| Sair qısamüddətli aktivlər | 6 | 260 971 | 126 357 |
| Təxirə salınmış vergi aktivləri | 5 | 14 815 | - |
| **Cəmi qısa müddətli aktivlər** | | **6 371 809** | **10 179 760** |
| **Cəmi aktivlər** | | **16 790 533** | **20 989 001** |
| ***KAPİTAL VƏ ÖHDƏLİKLƏR*** | | | |
| ***Kapital*** | | | |
| Ödənilmiş nominal(nizamnamə) kapital | 9 | 6 228 052 | 6 228 052 |
| Ehtiyat Kapitalı | 9 | 14 758 417 | 14 758 417 |
| Bölüşdürülməmiş mənfəət(yığılmış zərər) | 9 | (4 874 049) | (345 874) |
| **Cəmi Kapital** | | **16 112 420** | **20 640 595** |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Təxirə salınmış vergi öhdəlikləri | 5 | 168 415 | - |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **168 415** | **-** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Qısamüddətli kreditor borcları | 10 | 509 699 | 348 407 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **509 699** | **348 407** |
| **Cəmi öhdəliklər** | | **678 113** | **348 407** |
| **Cəmi kapital və öhdəliklər** | | **16 790 533** | **20 989 001** |

**Qeydlər bu maliyyə hesabatlarının tərkib hissəsidir.**

**Auditor rəyi 4-6-cı səhifələrdə öz əksini tapmışdır.**

Səhifə 9-23-də olan maliyyə hesabatları Rəhbər tərəfindən təsdiq edilmiş və onun adından imzalanmışdır.

İHS müvəqqəti icra edən: Eldar Məcidov

Maliyyə direktoru: Orxan İsmayılov

**"DÖVLƏT DƏNİZ VƏ LİMAN AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ**
**MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT**
**31 dekabr 2025-ci il tarixində başa çatan il üzrə**
*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| | Qeyd | 2025-ci il | 2024-cü il |
|---|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 11 | 7 947 165 | 7 539 394 |
| Sair əməliyyat gəlirləri | 11 | 78 859 | 6 281 517 |
| **Ümumi gəlir** | | **8 026 023** | **13 820 910** |
| Əməliyyat xərcləri | 11 | (6 640 037) | (6 755 555) |
| İnzibati xərclər | 12 | (5 914 161) | (6 502 284) |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **(4 528 175)** | **563 071** |
| **Vergiqoymadan əvvəl mənfəət** | | (4 528 175) | 563 071 |
| Mənfəət vergisi | | - | - |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **(4 528 175)** | **563 071** |

**Qeydlər bu maliyyə hesabatlarının tərkib hissəsidir.**

**Auditor rəyi 4-6-cı səhifələrdə öz əksini tapmışdır.**

Səhifə 9-23-də olan maliyyə hesabatları Rəhbər tərəfindən təsdiq edilmiş və onun adından imzalanmışdır.

İHS müvəqqəti icra edən: Eldar Məcidov

Maliyyə direktoru: Orxan İsmayılov

**"DÖVLƏT DƏNİZ VƏ LİMAN AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ**
**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31 dekabr 2025-ci il tarixində başa çatan il üzrə**
*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| | Qeyd | Nizamnamə kapitalı | Ehtiyat Kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il tarixinə** | **9** | **6 228 052** | **14 758 417** | **(908 945)** | **20 077 524** |
| Yenidən təqdimetmə üzrə düzəliş | | | | | - |
| Xalis aktivlərdə (kapitalda) artma (azalma) | 9 | | - | | - |
| Kapitalın maddələri arasında köçürmələr | | | - | - | - |
| Hesabat dövründə xalis mənfəət(zərər) | 9 | | | 563 071 | 563 071 |
| **31 dekabr 2024-cü il tarixinə qalıq** | **9** | **6 228 052** | **14 758 417** | **(345 874)** | **20 640 595** |
| Yenidən təqdimetmə üzrə düzəliş | | | | 78 859 | |
| Xalis aktivlərdə (kapitalda) artma (azalma) | 9 | - | - | | - |
| Kapitalın maddələri arasında köçürmələr | | | - | - | - |
| Hesabat dövründə xalis mənfəət(zərər) | 9 | | | (4 607 033) | (4 607 033) |
| **31 dekabr 2025-ci il tarixinə qalıq** | **9** | **6 228 052** | **14 758 417** | **(4 874 049)** | **16 112 420** |

**Qeydlər bu maliyyə hesabatlarının tərkib hissəsidir**

**Auditor rəyi 4-6-cı səhifələrdə öz əksini tapmışdır.**

Səhifə 9-23-də olan maliyyə hesabatları Rəhbər tərəfindən təsdiq edilmiş və onun adından imzalanmışdır.

İHS müvəqqəti icra edən: Eldar Məcidov

Maliyyə direktoru: Orxan İsmayılov

## "DÖVLƏT DƏNİZ VƏ LİMAN AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ
## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
**31 dekabr 2025-ci il tarixində başa çatan il üzrə**

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| | Qeyd | 2025 | 2024 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti ilə bağlı pul axınları:** | | | |
| Hesabat dövrü üzrə vergiqoymadan əvvəlki mənfəət/(zərər) | | (4 528 175) | 563 071 |
| Aşağıdakı maddələr üzrə düzəlişlər: | | | |
| Torpaq, tikili və avadanlıqların amortizasiyası | 4 | 895 465 | 1 034 751 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 4 | 97 243 | 106 011 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən pul axınları** | | **(3 535 466)** | **1 703 833** |
| **Əməliyyat aktivlərində (artım)/azalma:** | | | |
| Ehtiyatlarda dəyişiklik | 6 | (130 575) | 28 171 |
| Qısamüddətli debitor borcları | 7 | (273 505) | (93 664) |
| Sair qısamüddətli aktivlər | 6 | (134 613) | (93 884) |
| Qısamüddətli kreditor borcları | 10 | 161 292 | (110 259) |
| Dövlət büdcəsinə (vergilər üzrə) | 9 | 153 599 | (5 030) |
| **Əməliyyat fəaliyyətindən əldə edilən pul axınları** | | **(3 759 268)** | **1 429 166** |
| **İnvestisiya fəaliyyəti ilə bağlı pul axınları** | | | |
| Əmlak və avadanlığın əldə edilməsi | 4 | (450 198) | (202 952) |
| Qeyri-madi aktivlərin alınması üzrə ödənişlər | 4 | (151 993) | (4 719) |
| **İnvestisiya fəaliyyətindən əldə edilən xalis pul axınları** | | **(602 191)** | **(207 671)** |
| **Maliyyə fəaliyyəti ilə bağlı pul axınları** | | | |
| **Maliyyə fəaliyyətindən əldə edilən xalis pul axınları** | | **-** | **-** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalma)/artım** | | **(4 361 460)** | **1 221 495** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | 8 | **9 060 092** | **7 838 597** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 8 | **4 698 633** | **9 060 092** |

**Qeydlər bu maliyyə hesabatlarının tərkib hissəsidir**

**Auditor rəyi 4-6-cı səhifələrdə öz əksini tapmışdır.**

Səhifə 9-23-də olan maliyyə hesabatları Rəhbər tərəfindən təsdiq edilmiş və onun adından imzalanmışdır.

İHS müvəqqəti icra edən: Eldar Məcidov

Maliyyə direktoru: Orxan İsmayılov